# «Azərbaycanda mənzil-kommunal sahəsində yeni münasibətlər» mövzusunda tədbir keçirilmişdir

(Əvvəli 3-cü səhifədə).



İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutunun direktoru Vilayət Vəliyev isə çıxışında bildirmişdir ki, Azərbaycan Respublikasının Mənzil Məcəlləsinin qəbul edilməsi ilə bütövlükdə mənzil-kommunal sahəsində islahatların başlanılmasına təkan verilmişdir. İnstitut bu istiqamətdə aparılan siyasətin elmi əsaslarının işlənməsi üçün müasir beynəlxalq təcrübənin öyrənilməsi əsasında bu sahədə yeni idarəetmə formasının tətbiqi, qeyri-rasional xərclərin azaldılması, yaşayış fondunun idarə edilməsində rəqabətin inkişaf etdirilməsi, təchizatçı-istehlakçı münasibətlərinin formalaşdırılması, bu sahənin modernləşdirilmə prosesinə investisiyaların cəlb edilməsi, enerji resurslarına qənaət üzrə effektiv tədbirlərin görülməsi, yaşayış fondunun inventarlaşdırılması və özəlləşdirilməsinin stimullaşdırılmasına özəl sektorun cəlb edilməsi istiqamətində tədqiqatlar aparır və müvafiq təklif və tövsiyələr verir.

Sonda tədbirdə mənzil-kommunal sahəsində yeni münasibətlərə dair iştirakçıları maraqlandıran suallar cavablandırılmış, onlara "Mənzil fondunun yeni idarəetmə üsullarına dair sənədlər toplusu" adlı kitabçalar paylanmışdır.

**Zahir KƏRİMOV,**
**rayon icra hakimiyyətinin aparıcı məsləhətçisi.**
**Foto Səhrab UMUYEVİNDİR.**

# Azərbaycan–ulu torpaq, nəsillərə müqəddəs əmanət

Azərbaycan—ulu torpaq babalarımızın bugünki nəsillərə müqəddəs əmanətidir, atalarımızın vətən övladına candan əziz yadigarıdır. Bu torpağın hər qarışı yağı düşmənlərə qarşı ölüm-dirim döyüşlərində şəhid düşmüş ata-babalarımızın qanı ilə yoğrulmuşdur. Doğma xalqını, ana torpağını yağılardan qorumaq üçün canından keçmiş igidlərimizin ən müqəddəs, ən ülvü arzusu Azərbaycanı azad və müstəqil görmək idi.

1918-ci ilin bir yaz günündə Azərbaycan torpağında istiqlal günəşi parladı—28 May günəşi. Həmin gün Azərbaycanın dövlət müstəqilliyi elan olundu. Müstəqil Azərbaycan dövləti Azərbaycan Xalq Cümhuriyyəti elan edildi. Azərbaycan Xalq Cümhuriyyəti bütün türk-islam şərqində ilk xalq demokratik respublikası idi. Təəssüf ki, Azərbaycanın üzərində müstəqillik günəşinin parlaması cəmi 23 ay çəkdi. Rusiya imperiyasının Azərbaycanın sərvətlərinə olan marağı vətənimizin işğal edilərək "qırmızı imperiya"ya qatılmasına səbəb oldu.

70 il SSRİ hökümətinin əsarəti altında yaşayan xalqın səbr kasası artıq dolmuşdu. O zaman SSRİ-nin tərkibində olan başqa xalqlar da müstəqilliyə can atırdılar. Lakin Azərbaycanda azadlıq hərakatı, haqsızlığa qarşı mübarizə daha acıq şəkildə gedirdi. Yüz minlərlə insan azadlıq uğrunda mübarizəyə qalxmışdı. Yurdumuzun azad olacağı gün isə uzaqda deyildi. Sovet dövlətinin rəhbərləri bununla heç cür razılaşa bilmirdilər. Azərbaycanın itirilməsi Rusiya üçün hər şeydən əvvəl vətənimizin zəngin sərvətlərinin əldən çıxması demək idi. Bundan başqa əgər Azərbaycanda azadlıq hərəkatı qalib gəlsəydi, başqa respublikalarda da SSRİ-dən ayrılmaq uğrunda müstəqillik hərəkatı güclənərdi.

1990-cı ilin 20 Yanvar hadisələri Azərbaycan xalqının həyatında bir dönüş mərhələsi oldu. Həmin gün tariximizə qara səhifə kimi daxil oldu, Azərbaycan torpağı göz yaşına bələndi. Bu tarix—20 Yanvar Azərbaycan xalqının yaddaşına müstəqilliyin qazanılması uğrunda mübarizənin zirvəsi kimi həkk olundu. Məhz bu tarixdə 1988-ci ildən başlamış xalq hərəkatı özünün kuliminasiya nöqtəsinə çatdı. Azərbaycanın yüzlərlə oğul və qızları bu yolda şəhid olaraq gələcək nəsillərə həqiqi istiqlal bəxş etdilər.

1990-cı ilin may ayında sovet ordu hissələrinin hələ Bakıda olduğu o qorxulu günlərdə Azərbaycan Xalq Cümhuriyyətinin üc rəngli, ay-ulduzlu bayrağı Azərbaycan parlamentinin binası üzərində qaldırıldı. 1991-ci ilin fevralında dövlətimizin adı da dəyişdirildi. Onun adından "sovet" və "sosialist" sözləri çıxarıldı. Dövlətimiz Azərbaycan Respublikası adlandırıldı. Avqustun axırlarında xalqın tələbi ilə Azərbaycanın dövlət müstəqilliyini bərpa etmək barədə "Bəyanat" qəbul edildi. Bəyanatda bildirilirdi ki, Azərbaycanda yaşayan türklər və onlarla birlikdə bütün xalqların nümayəndələri Azərbaycan Respubliksının vətəndaşlarıdır və bərpa olunan Azərbaycan dövləti onların azad yaşamasını təmin edəcəkdir.

1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikasının dövlət müstəqilliyi elan edildi. Amma SSRİ dövləti hələ də qalırdı. Nə qədər ki, SSRİ dağılmamışdı, Azərbaycan tam müstəqil ola bilməzdi. Ona görə ki, Azərbaycan Respublikasının öz müstəqilliyini elan etməsinə baxmayaraq, onu hələ heç bir xarici dövlət tanımamışdı. 1991-ci il dekabrın 29-da Azərbaycan Respublikasında ümumxalq səsverməsi keçirildi. Səs verənlərin 95 faizindən çoxu Azərbaycan Respublikası dövlətinin müstəqilliyinə tərəfdar çıxdı. Bu sovet işğalına qarşı 70 illik mübarizənin yekunu oldu.

Müstəqillik bizim bugünümüzdür, sabahımızdır, gələcəyimizdir. Biz bir həqiqətə inanırıq ki, Azərbaycanın müstəqilliyi əbədidir, dönməzdir! İnanırıq ki, Azərbaycan xalqının başı üzərindəki azadlıq günəşi daha parlaq işıq saçaçaq, gələcək nəsillərə ərmağan olacaqdır.

**Tahirə ŞƏFİYEVA,**
**Qəbələ Rayon Tarix-Diyarşünaslıq Muzeyinin əməkdaşı.**

# Bakıda UNESCO-nun qeyri maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitəsinin səkkizinci sessiyası keçiriləcəkdir

Dekabrın 2-dən 7-dək UNESCO-nun qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitəsinin səkkizinci sessiyası keçiriləcəkdir. Sessiyada bir sıra ölkələrdə mövcud ənənələr, tarixi abidələrin qorunması, qeyri-maddi irs nümunələri və onlara UNESCO tərəfindən göstəriləcək maddi yardımlar və digər məsələlər müzakirə ediləcəkdir.

Sessiya çərçivəsində qeyri-maddi mədəni irsin qorunması üzrə Konvensiyanın 10 illik yubileyi qeyd olunacaqdır. Həmçinin tədbirdə Konvensiyanın milli səviyyədə icrası ilə bağlı bir sıra məsələlərin müzakirəsi də nəzərdə tutulur.

Qeyd olunmalıdır ki, ölkəmizdə belə bir mötəbər tədbirin təşkili Azərbaycanın dünyada getdikcə artan nüfüzüna bir daha bariz nümunədir.

Sessiyada 110 ölkədən 650-dən çox xarici qonaq iştirak edəcəkdir.

Bu xəbəri AzərTAc Mədəniyyət və Turizm Nazirliyinin sessiya ilə əlaqədar oktyabrın 19-da keçirdiyi tədbirə əsasən yaymışdır.

# "QHT-lərin hesabatlılıq öhdəliyi" mövzusunda məlumat sessiyası keçirilmişdir

ABŞ Beynəlxalq İnkişaf Agentliyinin (USAİD) dəstəyi ilə İnkişaf naminə Yerli Bacarıqların Artırılması layihəsi çərçivəsində Qəbələ Regional QHT-lərin Resurs və Təlim Mərkəzində "QHT-lərin hesabatlılıq öhdəliyi" mövzusunda məlumat sessiyası keçirilmişdir.

Məlumat sessiyasının əsas məqsədi Qəbələ və ətraf rayonlarda fəaliyyət göstərən QHT-ləri hesabatlılıq üzrə daxili qanunvericiliyin müvafiq tələbləri ilə tanış etməkdən ibarət olmuşdur.

Məlumat sessiyasına Qəbələ QHT-ləri ilə yanaşı, Qəbələ Regional QHT-lərin Resurs və Təlim Mərkəzinin əhatə dairəsində olan rayonlardan gələn 20-dən artıq QHT nümayəndələri də iştirak etmişlər.